BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Humanitar elmlər seriyası 2014*

**UOT 94(479.24)**

# DQMV-in TƏŞKİLİ PROSESİNDƏ AZ.MİK-in QƏRARLARI ARXİV SƏNƏDLƏRİNİN «DİLİ» İLƏ. TARİXİ HƏQİQƏTLƏR VƏ REALLIQLAR

**N.Z.MƏMMƏDOV**
***Bakı Dövlət Universiteti***
***Nuru_Mammadov@mail.ru***

*Məqalədə Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ məsələsinə digər sovet partiya və dövlət rəhbərlərinin riyakar siyasəti, erməni ideologiyasının saxta uydurmaları, mərkəzin avantürist mövqeyi konkret tarixi faktlarla və arxiv materiallarının «dili» ilə tədqiq edilir. Göstərilir ki, Dağlıq Qarabağ məsələsində N.Nərimanovun qətiyyətli mövqeyi və prinsipial siyasəti sayəsində Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanıldı. Ancaq bununla belə, Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması erməni saxtakarlığının yaramaz planı və Azərbaycanın ərazi bütövlüyünə qəsd idi.*

**Açar sözlər:** Az. MİK, dövlət orqanları, azərbaycan, Dağlıq Qarabağ, bolşevik-daşnak siyasəti. ərazi, işğal, sovet orqanları, Mərkəzi sovet hakimiyyəti

«Qarabağ məsələsi»ni uyduran erməni daşnak millətçiləri dəfələrlə Azərbaycana qarşı ərazi iddiaları irəli sürmüş və həmişə də öz havadarlarının dəstəyindən istifadə etmişlər. Ancaq tarixi reallıq budur ki, Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağ ərazisi çox vaxt kommunist rəhbərlərin də diqqətini cəlb etmiş, onun «ədalətli» həllinə dair dəfələrlə çıxışlar etmiş, təkliflər irəli sürmüşlər. Kommunist partiyası və sovet hökumətinin bolşevik rəhbərləri olan V.İ.Lenin, Q.V.Çiçerin, S.Orconikidze və b. dəfələrlə bildirmişlər ki, Dağlıq Qarabağ ərazisi Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Qarabağ məsələsinin düzgün həllini və Azərbaycanın tərkib hissəsi olmasını V.İ.Lenin də alqışlamış, Qarabağın inzibati və iqtisadi əlaqələrinin Azərbaycan ilə «sıx olduğunu» nəzərə almışdır (9, 158-159). Təəssüf ki, sonralar bolşevik rəhbərlər obyektiv mövqedən dönərək, yalançı uydurmaların təsiri altına düşmüş və məsələnin mürəkkəb xarakter almasına münbit şərait yaratmışlar. Apardığımız tədqiqatlar və arxiv sənədləri sübut edir ki, Azərbaycanın tərkib hissəsi olan Qarabağ haqqında məsələ dəfələrlə və fasiləsiz olaraq ciddi müzakirə mövzusu olmuşdur.

Qafqaz bürosunun 1921-ci il mayın 2-də olan iclasında Kirovun sədrliyi ilə komissiyanın yaradılması haqqında qərar qəbul edildi. Komissiyaya (Sva-

nidze, Todriya, Hüseynov, Hacınski, Rəsulzadə, Bekzadyan) sərhədlərin müəyyənləşdirilməsi üçün tezliklə təkliflərin hazırlanması tapşırıldı. Həmin komissiyanın iyunun 25-27-də keçirilən iclasında Zaqafqaziyanın inzibati ərazi bölgüsünün «ədalətsiz» olduğunu bildirən Bekzadyan müxtəlif bəhanələrlə və «beynəlmiləlçiliyi» rəhbər tutaraq Axalkalaki qəzasının, Lori-Pəmbək bölgəsinin və Dağlıq Qarabağın Ermənistana verilməsi iddiası ilə çıxış etdi. Hətta onu da bildirdi ki, guya belə söhbət may ayında Moskvada olanda bu təklifə Stalin də razı olmuşdu (18, 103). Bekzadyanın belə taktiki xahişi və hiyləgərliyi baş tutmur. Həm Azərbaycan, həm də Gürcüstan nümayəndələri Bekzadyanın «təkliflərini» rədd etdilər. S.M.Kirov Azərbaycan nümayəndəsinin mövqeyini dəstəklədi (14, 139).

AK(b) P MK-nın Siyasi və təşkilat Bürosunun 27 iyun tarixli iclasından dərhal sonra Nərimanov öz mövqeyini və iclasın qərarını telefon vasitəsilə Tiflisdə olan M.D.Hüseynova və A.Q.Şirvaniyə bildirir. Nərimanov qətiyyətlə tələb edir ki, onun və Azərbaycan rəhbərliyinin mövqeyini Qafqaz bürosunun üzvlərinə çatdırsın. Nərimanov telefon danışığında bir çox məsələlərə aydınlıq gətirir və bildirir ki, mənim bəyanatımda məsələ belə qoyulmuşdu: ***əvvəla,*** Dağlıq Qarabağa öz müqəddəratını sərbəst təyin etmək hüququ verilir; ***ikincisi,*** Dağlıq Qarabağ haqqında Bekzadyanın təklifləri qəbul edilməzdir; ***üçüncüsü***, AK(b) P MK-nın Siyasi və Təşkilat Bürosunun qərarı belədir: Dağlıq Qarabağın inzibati və iqtisadi mövqeyi Azərbaycandan ayrılmazdır; ***dördüncüsü***, erməni və türk (müsəlman-N.M.) əhalisinin iqtisadi və inzibati bölgəyə görə ayrılması təklifi də düzgün deyil; ***beşincisi,*** məsələnin yeganə həlli erməni və müsəlman əhalinin kütləvi olaraq Sovet quruculuğuna cəlb edilməsidir (9, 163).

N.Nərimanov elə həmin gün (iyunun 27-də) Q.K.Orconikidzeyə və A.F.Myasnikova belə bir ciddi məzmunlu teleqram göndərir: «Qarabağ cəbhəsinin mövcudluğu ilə bağlı olan cürbəcür siyasi mülahizələrə görə və Dağlıq Qarabağ» haqqında məsələ yalnız Ermənistan hərbi inqilab şurası tərəfindən həll edildiyinə, bu məsələyə hələ Xalq Komissarları Sovetində baxılmadığı üçün və indi də baxılmadığına görə, Azərbaycan XKS «yekdilliklə belə hesab edir ki, yol. Mravyanın «Dağlıq Qarabağda» Ermənistanın fövqəladə müvəkkili kimi peyda olması çox böyük siyasi və taktiki səhvdir. Bunu nəzərə alaraq Azərbaycan XKS yol.Mravyanın tezliklə geri çağırılmasını xahiş edir» (14, 140; 3, 189). Beləliklə, N.Nərimanovun möhkəm iradəsi və qətiyyəti sayəsində iyunun 27-də Mravyan Qarabağdan geri qaytarıldı.

N.Nərimanovun birbaşa telefon xətti ilə Tiflisdə olan M.D.Hüseynov və A.Q.Şirvaniyə Azərbaycan rəhbərliyinin mövqeyini qətiyyətlə bildirməsi barədə məlumatı dinləyən Qafqaz bürosu təcili plenum çağırır. Plenum Nərimanovun və Myasnikovun təcili Tiflisə gəlmələri haqqında qərar qəbul edir (15, 88).

1921-ci il iyulun 4-də RK(b) P.MK Qafqaz bürosunun Stalinin iştirakı ilə plenum iclası oldu. İclasda Qafqaz bürosunun 8 üzvü: Orconikidze, Maxaradze, Nərimanov, Myasnikov, Kirov, Nazaretyan, Oraxelaşvili və Fiqatner,

komsomolun Qafqaz bürosunun katibi Breytman, Gürcüstan KP MK-nın 3 üzvü: Çinqadze, Mdivani və Svanidze iştirak edirdilər. İclasda Qarabağ məsələsinin müzakirəsi zamanı 4 məsələ səsə qoyuldu. Səsvermədə Qafqaz bürosunun 7 üzvü iştirak edirdi (Oraxelaşvili yox idi). Qarabağın Azərbaycanın tərkibində saxlanılmasının lehinə Nərimanov, Maxaradze, Nazaretyan, əleyhinə Orconikidze, Myasnikov, Kirov, Fiqatner səs verdilər. Cəmi bir səs üstünlüyü ilə plenum qərara aldı: «Dağlıq Qarabağ Ermənistan SSR-nin tərkibinə daxil edilsin, rəy sorğusu yalnız Dağlıq Qarabağda keçirilsin». Vəziyyətin belə mürəkkəb vaxtında və ədalətsiz qərarın qəbul edilməsi anında N.Nərimanov tarixi bəyanatla çıxış etdi: «Qarabağ məsələsi Azərbaycan üçün mühüm məsələ olduğuna görə, onun qəti həllinin RK(b)P MK-ya çıxarılmasını zəruri sayıram» (15, 90-91; 14, 141).

Beləliklə, Nərimanovun qətiyyəti sayəsində Qafqaz bürosu Qarabağ məsələsinin mahiyyətinə ciddi nüfuz edərək və onun ədalətli həllini yüksək məsuliyyət tələb etdiyini nəzərə alaraq, Orconikidzenin və Nazaretyanın təklifi ilə ertəsi gün, yəni iyulun 5-də Azərbaycan SSR Xalq Xarici İşlər komissarı M.D.Hüseynovun iştirakı ilə geniş tərkibdə müzakirəyə çıxarır. İclasda iştirak edirdilər: Stalin, Qafqaz bürosunun üzvləri: Orconikidze, Maxaradze, Kirov, Nazaretyan, Oraxelaşvili, Fiqatner, Nərimanov və Myasnikov, habelə M.D.Hüseynov. Səsvermə zamanı nəticə belə oldu: 4 nəfər lehinə, 3 nəfər bitərəf, əleyhinə yoxdur. Beləliklə, Qafqaz bürosu qərara aldı: «Müsəlmanlarla ermənilər arasında milli sülhün zəruriliyini, Yuxarı və Aşağı Qarabağın iqtisadi əlaqələrini, onun Azərbaycanla daimi əlaqəsini əsas tutaraq, Dağlıq Qarabağ Azərbaycan SSR-nin hüdudlarında saxlansın, onun tərkibinə daxil olan Şuşa şəhəri inzibati mərkəz olmaqla, geniş vilayət muxtariyyəti verilsin». AK(b) P MK-ya tapşırıldı ki, «muxtar vilayətin sərhədlərini müəyyənləşdirsin və təsdiq olunmaq üçün RK(b) P MK Qafqaz bürosuna təqdim etsin» (15, 92; 3, 191).

Beləliklə, mürəkkəb siyasi şəraitdə «Dağlıq Qarabağı Azərbaycan SSR hüdudlarında saxlamaq» haqqında qərar qəbul olunması Nərimanovun tarixi xidmətidir (7, 176).

N.Nərimanovun xidmətini yüksək qiymətləndirən Heydər Əliyev demişdir: «…Tarixi bilənlər, tarixlə sənədlər əsasında tanış olanlar yaxşı bilirlər ki, Nərimanov və başqaları o vaxt nə qədər kəskin mübarizə aparmışlar. Ancaq sadəcə, ona nail ola bilmişlər ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində qalsın. Tarixçilər yaxşı bilirlər ki, Moskvada, Tiflisdə, Zaqafqaziya Federasiyasında Dağlıq Qarabağın Ermənistana verilməsi barədə məsələ qoyulanda N.Nərimanov ciddi bir bəyanat vermişdi və kəskin demişdi ki, onda biz Rusiyaya neft verilməsini dayandıracağıq…Məhz bu kəskin mübarizənin nəticəsində, nəhayət, belə bir qərar qəbul olunmuşdu» (5). Bir mühüm məsələni də qeyd etmək lazımdır ki, 5 iyul qərarında Dağlıq Qarabağa gələcəkdə muxtar vilayət hüququnun verilməsi ideyası da irəli sürülmüşdür. Sonrakı hadisələr göstərdi ki, erməni ideoloqları həmin ideyadan möhkəm yapışaraq onu reallaşdırmaq yolunda ciddi cəhdlər göstərmiş və sonralar, geniş statusa malik olan Muxtar

Vilayət yaradılmasına nail ola bilmişlər.

1921-ci il avqustun 8-də L.Mirzoyan AK(b) P MK-ya göndərdiyi məktubda qeyd edirdi ki, «Dağlıq Qarabağ müstəqil inzibati vahid kimi yaradılsın və o Mərkəzə – Azərb. XKS-ə, Az.MİK-ə, partiya əlaqələrinə görə AKP-yə tabe edilsin» (2, i.123, 109-110).

1921-ci il avqustun 8-də AKP(b) P MK-nın Siyasi və təşkilat bürosu Qarabağda vəziyyət haqqında Ə.H.Qarayevin və L.İ.Mirzoyanın məruzələrini dinləyərək Şuşa şəhər partiya komitəsinin yeni tərkibini, habelə Ə.H.Qarayevi Qarabağ üzrə fövqəladə müvəkkil təsdiq etdi (2, i.123, 90). Sentyabrın 26-da səs çoxluğu ilə qərara aldı: «Qafqaz bürosundan xahiş edilsin ki, Dağlıq Qarabağa muxtariyyət verilməsi haqqında qərarına yenidən baxsın: həmin vaxtadək muxtariyyət elan edilməsin» (2, i.18, 158). Həmin iclasın qərarı ilə Qarayev, Əfəndiyev və Mirzoyandan ibarət komissiya yaradıldı. Bu komissiyaya tapşırıldı ki, Qarabağa gedib sovet quruculuğu işi aparsınlar, məlumatlar toplayıb Az.MİK-ə geniş material təqdim etsinlər (1, i.7481, 13; 16, 93). Zənnimizcə MK-nın bu qərarı düzgün qərar deyildi. Ona görə ki, iyulun 5-də qəbul edilən qərara sanki bir düzəliş idi. Yəni necə başa düşmək olardı ki, «…Dağlıq Qarabağa muxtariyyət verilməsi haqqında qərarına yenidən baxsın…». Əslində bu ifadə gələcəkdə muxtar vilayət yaradılmasına işarə idi.

Qarabağ bölgəsində yaşayan əhaliyə və dövlət orqanlarına maddi və kadr köməyi göstərmək məqsədilə AK(b) P MK Təşkilat bürosunun 1921-ci il 6 oktyabr tarixli iclasının, Az.MİK-in və Azərb.XKS-nin qərarları ilə bir milyard manat pul, 500 dəst milis paltarı, çoxlu ərzaq və istehlak malları, məsul işçilər göndərildi (1, i.2917, 4; 15, 98, 107).

1922-ci il dekabrın 5-də, 16-da, 17-də, 20-də, 24-də Azərbaycanın və Zaqafqaziyanın partiya, sovet rəhbərliyi «Qarabağ məsələsini» dəfələrlə müzakirə edərək, heç də yerli əhalinin istəmədiyi halda yeni muxtar vilayətin yaradılması istiqamətində müxtəlif qərarlar qəbul etmişdi. Hətta Azərbaycan və Zaqafqaziyanın rəhbər partiya işçilərinin gizli teleqramları və çoxlu yazışmaları (15, 131-148) dediklərimizə sübutdur.

1922-ci il dekabrın 15-də AK(b) MK-nın Rəyasət Heyətinin iclasında yenidən Qarabağ haqqında məsələyə baxılır. Kirov, Mirzabekyants və Karakozovdan ibarət komissiya yaradılır. Komissiyaya tapşırılır ki, Dağlıq Qarabağ haqqında Az.MİK-in dekreti tezləşdirilsin. Dekabrın 16-da Az.MİK-in və Az.XKS-in M.B.Qasımov, D.Bünyadzadə və M.Xanbudaqovun imzası ilə Dağlıq Qarabağ haqqında qərarı elan edilir. 1922-ci il dekabrın 17-də Dağlıq Qarabağ haqqında Az.MİK və XKS-in qərarına əsasən 1923-cü il yanvarın 2-də Dağlıq Qarabağ işləri üzrə Komitənin üç nəfərdən ibarət ştatı təsdiq edildi (13, 198-199).

Hər dəfə müxtəlif fikirlər, baxışlar və təkliflər irəli sürülürdü. Nəhayət, 1923-cü ilin mayında Qarabağ məsələsinin həllinə dair aşağıdakılar irəli sürüldü: dörd qəza ləğv edilib, iki inzibati vahid yaradılsın: ***birincisi,*** Şuşa mərkəz olmaqla Kürdüstanla birlikdə Dağlıq Qarabağ və ***ikincisi***, Ağdam mərkəz

olmaqla düzən Qarabağ qəzaları yaradılsın. Bütün Qarabağa ümumi rəhbərlik üçün quberniya icraiyyə komitələri hüququnda vilayət partiya və sovet orqanları təşkil edilsin (2, i.249, 423).

SSRİ-nin təşkilindən sonra S.Orconikidzenin tövsiyəsi ilə N.Nərimanov SSRİ MİK-in 4 sədrindən biri kimi Moskvaya «çağırılır». Nərimanovun Moskvaya gedişi S.M.Kirovun və tərəfdarlarının əl-qolunu açdı. 1923-cü il iyulun 1-də AK (b) P MK Rəyasət Heyəti S.M.Kirovun sədrliyi, Ə.Qarayev, R.Axundov, L.Mirzoyan və başqalarının iştirakı ilə Dağlıq Qarabağa muxtariyyət verilməsi məsələsini müzakirə etdi. Həmin gün Az.MİK-in «Dağlıq Qarabağ Muxtar Vilayətinin yaranması haqqında» dekreti dərc edildi. (6, 56). Bununla əlaqədar N.Nərimanov yazırdı: «Dağlıq Qarabağ L.Mirzoyanın güclü təzyiqi altında muxtar vilayət elan edilmişdir. Mənim vaxtımda buna müvəffəq olmamışdılar… Qətiyyən şübhə etmirəm ki, AK(b) P MK Serqonun simasında biz türklərə etibar etmir və Azərbaycanın taleyini erməni daşnaklarına tapşırır» (11, 60).

AK(b) P MK Rəyasət Heyətinin S.M.Kirovun sədrliyi ilə olan 1 iyul 1923-cü il tarixli iclasında (2, i.132, 145) Qarabağ haqqında məsələ müzakirəyə çıxarıldı:

a) Az.MİK-ə təklif olundu ki, Rəyasət Heyəti adından mərkəzi Xankəndi olan «Dağlıq Qarabağ Muxtar Vilayəti» yaradılsın. Onun sərhədləri xüsusi komissiya tərəfindən müəyyənləşdirilsin;

b) icraiyyə Komitəsi yaranana qədər sədri Karakozov, tərkibi 5 nəfərdən ibarət olan İnqilab Komitəsi yaradılsın.

Komissiyaya tapşırıldı ki, 7 gün müddətində yekun təkliflərini MK-nın Rəyasət Heyətinə təqdim etsin (2, i.132, 145).

AK(b) P MK Rəyasət Heyətinin 16 iyul 1923-cü il tarixli iclasında Qarabağ məsələsi üzrə komissiya adından Bünyadzadənin məruzəsi dinlənildi və qərara alındı ki, (2, i.132, 164): artıq qalan torpaq sahələri Muxtar Vilayətin ərazisinə daxil edilsin; Şuşa DQMV-in tərkibinə daxil edilsin; tərkibi 5 nəfərdən ibarət (sədr- Karakazov, üzvlər: Biniatov, Konstanyan, Kafiyev və Çalyan) DQMV İnqilab Komitəsi yaradılsın; tərkibi 9 nəfərdən ibarət vilayət partiya komitəsi (katib Konstanyan) yaradılsın; DQMV-in Konstitusiyasının qəti hazırlanması üçün Komissiyaya 3 gün vaxt verilsin (2, i.132, 164-165).

1923-cü il avqustun 6-da Az.MİK-in sərəncamı ilə Qarabağın dağlıq hissəsinin muxtar vilayətə ayrılması ilə əlaqədar Qarabağın qalan hissəsindən – Ağdam, Cəbrayıl və Kürdüstan qəzaları yaradılır. 1923-cü il sentyabrın 18-də keçirilən vilayət partiya komitəsinin qərarı ilə Xankəndinin adı dəyişdirilərək xalqımızın qəddar düşməni olan S.Şaumyanın şərəfinə Stepanakert adlandırıldı (13, 204).

Beləliklə, erməni daşnak liderləri və onlara kömək edən bolşevik məmurlar müxtəlif planlar və layihələr uyduraraq bu ərazini iki inzibati orqana – «Dağlıq» və «Düzən» Qarabağa bölünməsinin süni olduğunu «isbat» edirdilər. Erməni daşnakları hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə Azərbaycan

torpaqlarını işğal etmək üçün inzibati vahid kimi «Dağlıq Qarabağ» adını uydurmuşdular və bu ərazinin hər vəchlə Ermənistana birləşdirilməsinə çalışırdılar (3, 196). «Dağlıq» sözünü kəşf edən ermənilər bu termini bütün Qarabağ ərazisinə yapışdırdılar.

1923-cü ilin noyabrında DQMV-in birinci Sovetlər qurultayı oldu. Qurultayın 132 nümayəndəsindən 116 nəfər erməni, cəmi 16 nəfəri azərbaycanlı idi. Qurultay DQMV-in MİK-ni seçdi. MİK-in sədri A.N.Karakozov təsdiq edildi (14, 152).

Dağlıq Qarabağ Muxtar Vilayətinin yaranmasına nail olan ermənilər yenidən əsasnamənin hazırlanmasına ciddi səylə çalışırdılar. Həm də maraqlıdır ki, Kirov başda olmaqla AK (b) P MK katibliyi DQMV Əsasnaməsini tezliklə hazırlamağı Az.MİK-dən tələb etdi. 1923-cü il sentyabrın 11-də Kirov Az.MİK-in katibi M.Xanbudaqova göndərdiyi rəsmi məktubda (12, 339) tələb edirdi ki, əsasnaməni yaxın günlərdə hazırlasın. 1923-cü il oktyabrın 18-də əsasnaməni hazırlayan komissiyanın iclası keçirildi. İclasda Vilayətin sərhədləri məsələsinə baxıldı. Həmin il dekabrın 11-də Əsasnaməni yenidən işləmək üçün T.Şahbazinin sədrliyi ilə Karakozov, V.Vəlibəyov, M.C.Bağırov və Sərkisovdan ibarət komissiya yaradılır. 1924-cü il iyulun 1-də AK(b) P MK Rəyasət Heyətində Əsasnamənin son variantını hazırlamaq üçün yeni komissiya təşkil olundu. M.C.Bağırov (sədr), T.Əliyev və Karakazovdan ibarət olan komissiya öz işini bir gün ərzində gördü və AK (b) P MK Rəyasət Heyətinin təsdiqinə təqdim etdi. İyulun 3-də AK (b) P MK Rəyasət Heyəti Əsasnaməni bəyəndi və Az.MİK Rəyasət Heyətinə təklif etdi ki, layihə türk (Azərbaycan), erməni və rus dillərində dərc edilsin (12, 339).

Nəhayət, 1924-cü ilin noyabrında «Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında Əsasnamə» qəbul edildi (1, i.3215, 23). Əsasnamədə deyilirdi ki, DQMV Azərbaycan SSR-in tərkib hissəsidir və o, Azərbaycan Respublikasının orqanlarında proporsional prinsip əsasında iştirak edir. Əsasnaməyə görə, DQMV-in sərhədləri müəyyənləşdirildi: belə ki, Şuşa qəzası üzrə Şuşa və Xankəndi şəhərləri daxil olmaqla 116 kənd və 2 şəhər, Cavanşir qəzası üzrə 52 kənd, Karyagin qəzası üzrə 30 kənd və Qubadlı qəzasından 1 kənd daxil edildi. Cəmi 199 kənd və 2 şəhər olmaqla DQMV-in sərhədləri müəyyən edildi (1, i.3215, 23; 15, 268-269). Əsasnaməyə görə vilayətdə 7 komissarlıq: daxili işlər, ədliyyə, maarif, səhiyyə, torpaq işləri, mərkəzi statistika idarəsi və XKS komissarları təşkil edildi (1, i.3215, 23; 15, 268-269).

Az.MİK-in məlum dekreti ilə DQMV-in sərhədləri müəyyən edilsə də, sanki, o, bitmək bilmirdi. Qonşu rayonların əraziləri hesabına DQMV-in ərazi coğrafiyası «şişməkdə» davam edirdi. DQMV ilə Kürdüstan qəzası arasında sərhədi müəyyənləşdirmək üçün AK (b) P MK Rəyasət Heyətinin 1925-ci il 24 iyun tarixli iclasında tərkibi 3 nəfərdən ibarət olan (Arazyan, Qorobçenko, Qara İlyasov) yeni bir komissiya yaradıldı (2, i.142, 186). Komissiyaya sərhəd məsələlərini yenidən «nəzərdən keçirmək» tapşırıldı.

Erməni daşnak liderlərinin demək olar ki, bütün layihə və planlarının

daxili mahiyyəti antiazərbaycan siyasəti idi və torpaqlarımızın ardıcıl olaraq zəbt edilməsi məqsədi daşıyırdı. Bu avantürist və yaramaz siyasət «Qarabağ məsələsi» uydurulan gündən sona qədər davam etdirilmişdir. Fikrimizi dəqiqləşdirək: RK(b) P MK-nın Qafqaz bürosunun 5 iyul 1921-ci il tarixli qərarında vilayətin mərkəzi Şuşa şəhəri tövsiyə edilsə də, ancaq sonralar bu tövsiyə unuduldu və mərkəzi Xankəndi təsdiq edildi. Bu yerdə aydın olur ki, erməni kələkbazları özlərinin hiyləgər siyasətlərini Şuşa şəhərində həyata keçirə bilməyəcəkdilər. Çünki Şuşada azərbaycanlı əhali çoxluq təşkil edirdi. Ona görə də erməni «başbilənləri» bilərəkdən Muxtar Vilayətin mərkəzini kiçik bir qəsəbəyə köçürdülər ki, gələcəkdə öz çirkin niyyətlərini həyata keçirmək üçün zəmin hazırlasınlar. Tarix dediklərimizi sübut etdi.

İyirminci illərin əvvəlində DQMV-in ərazisi 3656 kv.km. (16, 8), az sonra isə 4160,5 kv. km oldu. İki ildən sonra (1923-1925) Azərbaycanın torpaq fondundan DQMV-in tərkibinə 16 min desyatin əlavə torpaq verilmişdi. DQMV-ın ərazisi 1933-cü il yanvarın 1-ə olan məlumata görə 4431,7 kv.km təşkil edirdi (8, 67-68).

Dağlıq Qarabağa Azərbaycanın tərkibində muxtariyyət verilməsi Heydər Əliyevin sözləri ilə desək: «Azərbaycanın əleyhinə olan bir qərar idi» (4). Azərbaycan torpaqlarını hissə-hissə, tikə-tikə ələ keçirən erməni işğalçıları zaman-zaman və mərhələ-mərhələ öz məkrli planlarına böyük dövlətlərin dəstəyi ilə nail olmuşlar.

Şovinist ruhlu erməni daşnaklarının azərbaycanlılara qarşı hiyləgər və məkrli niyyətlərinin cavabsız qalması və bu avantürist siyasətə vaxtında layiqli cavab verilməməsi səbəbindən onları yeni-yeni cinayət ruhlu aksiyaları həyata keçirməyə, torpaqlarımızı zəbt etməyə, yeri düşdükcə Azərbaycan xalqına arxadan ağır zərbələr vurmağa sövq edirdi.

Aparılan tədqiqatlardan və arxiv sənədlərindən aydın olur ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə, 1920-ci ilin mart-aprel aylarında Qarabağda təşkil edilmiş erməni qiyamının məkrli planını Sovet komandanlığı rəsmi İrəvanla birgə hazırlamışdı və məqsəd Azərbaycana hücum edən XI Ordunun əməliyyatlarını asanlaşdırmaqdan ibarət idi. Erməni daşnak liderləri Sovet Rusiyasına göstərdikləri «ayı xidməti» müqabilində Azərbaycanın əzəli torpaqları olan Zəngəzur və Qarabağın dağlıq hissəsinin Ermənistana verilməsi barədə Moskva ilə razılığa gəlmişdilər (10, 187).

Beləliklə, aparılan tədqiqatlar, arxiv materialları, partiya və dövlət sənədləri, tarixşünaslıq ədəbiyyatı, qaynaqlar və mənbələr bir daha təsdiq edir ki, Qarabağ ərazisi ən qədim zamanlardan Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Tarixi həqiqət belədir.

## MƏNBƏLƏR VƏ ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Dövlət Arxivi, f.379, siy.1
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi yanında Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivi, f.1, siy.74, iş.123
3. Azərbaycan tarixi. 7 cilddə. VI c., Bakı: Elm, 2000, 516 s.

4. Əliyev H.Ə. Xalqımızın birliyi və dövlətimizin düzgün siyasəti sayəsində müstəqilliyimizi qoruyub saxlayacaq, daha da möhkəmləndirəcəyik // Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitq. «Azərbaycan» qəzeti, 1998-ci il 28 may.
5. Əliyev H.Ə. Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi üzrə dövlət komissiyasının iclasında nitq. «Azərbaycan qəzeti», 1999-cu il 11 fevral.
6. Xudiyev R. Nəriman Nərimanov və Azərbaycanın ərazi bütövlüyü // Bakı: Dirçəliş - XXI əsr, №19, 1999
7. Köçərli T. Qarabağ: Yalan və həqiqət. Bakı: Əbilov, Zeynalov və oğulları, 1998, 343 s.
8. Mehdiyev R. Gorus – 2010 absurd teatrı mövsümü. Bakı: Şərq-Qərb, 2010, 77s.
9. Məmmədov N. Azərbaycan dövlətçiliyi tarixində Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin yeri və rolu (1921-1938-ci illər). Bakı, Çaşıoğlu, 2012, 508 s.
10. Məmmədov X., Məmmədov N. Erməni iddiaları və azərbaycanlıların soyqırımı. Bakı: Ülvi-həyat, 2008, 317 s.
11. Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub). Bakı: Azərnəşr, 1992, 79 s.
12. Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı: Azərbaycan, 2001, 536 s.
13. Paşayev A. XIX-XX əsrlərdə ermənilərin azərbaycanlılara qarşı ərazi iddiaları, soyqırımları və deportasiyalar (arxiv sənəd və materialları əsasında). Bakı: Çaşıoğlu, 2011, 328 s.
14. Гулиев Дж.Б. К истории образования второй республики Азербайджана. Баку: Элм, 1997, 164 с.
15. К истории образования НКАО Азербайджанской ССР (1918-1925гг.). Документы и материалы. Баку: Азернешр, 1989, 334с.
16. Краткий обзор материалов к докладу Закавказского Правительства. Тифлис. 1925, 111с.
17. Резолюции и постановления съездов советов Азербайджанской ССР (1921-1937гг.). Баку: АН Азерб. ССР, 1961, 200 с.
18. Хармандарян С.В. Ленин и становление Закавказской федерации 1921-1923гг. Ереван: Айастан, 1969, 456 с.
19. http://ru.wikipedia.org / Курдистанский уезд

## РЕШЕНИЯ АЗ.ЦИК-а «ЯЗЫКОМ» АРХИВНЫХ МАТЕРИАЛОВ В ПРОЦЕССЕ СОЗДАНИЯ НКАО: ИСТОРИЧЕСКАЯ ПРАВДА И РЕАЛЬНОСТЬ

**Н.З.МАМЕДОВ**

### РЕЗЮМЕ

В статье исследуется лицемерная политика советских партийных и государственных руководителей по отношению проблемы Нагорного Карабаха, а также выдуманная политика армян, авантюристическая политика центра раскрывается на основе фактов архивного материала. В статье также показано твердая позиция и принципиальная политика Н.Нариманова, в результате которой Нагорный Карабах остался в составе Азербайджанской ССР. Но вместе с тем, создание НКАО как осуществление коварного плана армянских фальсификаторов было покушением на территориальную целостность Азербайджана.

**Ключевые слова**: Аз.ЦИК, Государственные органы, Азербайджан, Нагорный Карабах, большевистско-дашнакская политика, территория, оккупация, советские органы, Центральное советское правительство

## DECİSİONS OF AZERBAIJAN CENTRAL EXECUTIVE COMMITTEE İN THE "LANGUAGE" OF ARCHIVAL MATERIALS IN THE ESTABLİSHMENT OF NAGORNO-KARABAKH AUTONOMOUS REPUBLİC: HISTORICAL TRUTH AND REALITY

**N.Z.MAMMADOV**

**SUMMARY**

The presented article studies the problem of indivisible part of Azerbaijan, Upper Garabagh, according to the historical facts and in the "language" of archieve materials. Here, the wrong policy of the Soviet government and state leaders, the false ideology of Armenian's are shown. It is shown that thanks to N.Narimanov's untired position and policy, Upper Garabagh was kept and adopted as a part of Azerbaijan. However, the establishment of Upper Garabagh Autonomous Republic was Armenian policy directed against territorial integrity of Azerbaijan.

**Key words:** Azerbaijan CEC**,** state organs, Azerbaijan, Garabagh, Bolshevik-Dashnak policy, territory, capture, Soviet government